**1144** **"Heydər Əliyev Mərkəzi"nin yaradılması haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1969-cu ildən etibarən respublikamızda gerçəkləşdirdiyi quruculuq salnaməsinin hər səhifəsi tariximizin unudulmaz anlarını özündə əks etdirir. Hər bir azərbaycanlının taleyində mühüm əhəmiyyət kəsb edən tədbirlər, o cümlədən neft müqavilələrinin imzalanması mərasimləri, tarixi İpək Yolunun bərpası ilə bağlı layihələr, dünya azərbaycanlılarının qurultayları, beynəlxalq sammitlər və neft sərgiləri məhz Heydər Əliyevin adını daşıyan Saray, İdman-Konsert Kompleksi və "Gülüstan" kimi əzəmətli tikililərdə həyata keçirilmişdir.

Ölkəmiz son üç ildə Heydər Əliyev strategiyasını layiqincə davam etdirərək böyük uğurlar qazanmışdır. Bir çox iqtisadi göstəricilərə görə Azərbaycan nəinki regionda, hətta dünyada öncüllər sırasına çıxmışdır. Respublikamıza artan diqqət və maraq burada keçirilən beynəlxalq miqyaslı konfransların, müsabiqələrin və görüşlərin sayının daim artmasında da öz əksini tapmışdır. Belə mərasimlərin təşkilinə imkan verən, müasir tələblərə uyğun və bir məkanda konfrans, sərgi, konsert, ziyafət, kitabxana və digər məqsədlər üçün yararlı olan salonları özündə birləşdirən kompleks tikililərə böyük ehtiyac duyulur.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev ayrı-ayrı ölkələrə rəsmi səfərləri zamanı mötəbər kürsülərdən Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmışdır. Bu çıxışların bir qismi həmin ölkələrin tarixi şəxsiyyətlərinin şərəfinə yaradılmış mərkəzlərdə olmuşdur. Belə mərkəzlər struktur və fəaliyyət proqramları baxımından kifayət qədər bir-birindən fərqlənsələr də, adlarını daşıdıqları şəxsiyyətlərin siyasi məfkurələrinə uyğun fəaliyyət göstərmələri onları birləşdirən əsas cəhətdir. Həmin mərkəzlər ölkənin ictimai-siyasi və mədəni həyatında böyük rol oynamaqla yanaşı, eyni zamanda beynəlxalq səviyyəli siyasi tədbirlərin, müxtəlif konfransların və festivalların keçirilməsi üçün də son dərəcə münasibdir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev bizə azərbaycançılıq kimi dərin bir fəlsəfi konsepsiyanı bəxş edərək, Azərbaycan dilini, Azərbaycan tarixini, Azərbaycan mədəniyyətini və milli-mənəvi dəyərlərimizi qorumağı dönə-dönə tövsiyə etmişdir. Azərbaycançılıq məfkurəsi çərçivəsində ölkəmizdə xeyli iş aparılsa da, bu işlərin vahid bir mərkəzdən sistemli şəkildə istiqamətlənməsinə ehtiyac var. Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəninin, millətinin və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirak edərək arzu və niyyətlərini gerçəkləşdirmək əzmi müasir texnologiyalarla təchiz olunmuş və çoxşaxəli struktura malik "Heydər Əliyev Mərkəzi"nin yaradılması zərurətini ön plana çəkir.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması və hərtərəfli inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində "Heydər Əliyev Mərkəzi" yaradılsın.

2. Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi "Heydər Əliyev Mərkəzi"nin yaradılması üçün Bakı şəhərində müvafiq yer ayrılması və tikinti-quraşdırma işlərinin aparılması ilə bağlı təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı "Heydər Əliyev Mərkəzi"nin strukturu, idarə olunması və fəaliyyət proqramına dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2006-cı il
№ 1886